# Tanrının ömür payı




Nə dünyaya gəlişimiz, nə də yaşadığımız ömür bizim istək və arzumuzla müəyyənləşir. Bizi xəlq edənin möcüzəsi və bəxşişidi bunlar. Kiminə az, kiminə çox, kiminə mənalı, kiminə boş...

Tanrı payını alanlardan biri Rafiq Yusifoğlu da ömrünün 60-cı qapısını açmalı oldu. O, 1950-ci ilin yanvarında Qubadlı rayonunun Çardaxlı kəndində anadan olub. 1970-ci ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra Sumqayıtda müəllim işləyib. 1984-cü ildə namizədlik, 2006-cı ildə doktorluq dissertasiyalarını müdafiə edib. Bir tərəfdə bədii yaradıcılıqla məşğul olan Rafiq Yusifoğlu həm də "Göyərçin" jurnalının baş redaktorudur. Uşaqlar, eləcə də hamı üçün maraqlı, yaddaqalan, gözəl şeirlər yazır. Digər tərəfdən, Sumqayıt Dövlət Universitetinin professorudur, pedaqoji və elmi fəaliyyətlə məşğuldur. 50-yə yaxın kitabın, o cümlədən ali məktəb tələbələri və orta məktəb şagirdləri üçün yazdığı bir sıra dərsliklərin müəllifidir. Əməkdar mədəniyyət işçisi Rafiq Yusifoğlunun əsərləri bir sıra xarici dillərə tərcümə olunub, şeirlərinə mahnılar bəstələnib. Tanınmış şairin bir neçə şeirini oxucuların diqqətinə çəkməklə 60 yaşını ürəkdən təbrik edirik.

## Qubadlım

Yadıma dağların, düzlərin düşür,
Kül altda uyuyan közlərin düşür,
Yoluma dikilən gözlərin düşür,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?!

Qızıldaş əzəldən sinə dağlıdı,
Çayzəmiyə gedən yollar bağlıdı,
Bu miskin görkəmin məni ağrıdır,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?!

Qoca Sak hirslənib Xocamsaxlıda,
Dönüb Ballıqaya qara buluda.
Unuda bilmərik, səni unuda,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?!

Çardaxlı dağları kövrəlib, dinib,
Əyinin, Göyyalın işığı sönüb,
Başarat - həşarat yurduna dönüb,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayıdacağıq?!

Zəhərə çevrilib ömrün şəkəri,
Hönkürür Bərgüşad, dinir Həkəri
Söndümü bəxtimin tale ülkəri?
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Darıxma qoynuna qayıdacağıq!

## Ömür kitabı

Dağları görməyə gözüm tələsir,
Zirvələr üzünü niyə yaşmayıb?
Yol dağa dirənib, dizlərim əsir,
Ya qismət, o üzə aşım, aşmayım?!

Gərək dağ övladı dağa sığına,
Ürəyim hönkürsə, çətin kiriyər.
Girib xatirələr alaçığına,
Tək-tənha dönürəm üzü geriyə.

Söz almaq istəyir sozalan ömrüm,
İtən gəncliyimi soraqlayıram.
Taleyin əliylə yazılan ömrün
Qalın kitabını vərəqləyirəm.

Yaxşı ki, getməyib ömrüm havayı,
Qəlbimi isidir doğma yurd, ocaq.
Ömür kitabımı məndən savayı
Heç kəs vərəqləyib oxumayacaq

* * *

*Rafiq Yusifoğlunun uşaqlar üçün yazdığı şeirlər:*

## Sənə soyuq dəyəcək

- Sənə soyuq dəyəcək,
Əynində yoxdu pencək.
- Yox, soyuq köynəyimə
Dəyib, yerə düşəcək...

## Dəniz niyə duzludur?

- Dəniz niyə duzludur,
Fikirləş yaxşı-yaxşı.
- Sularına qarışıb,
Balıqların göz yaşı.

## Tez-tez yuxu görürəm

Tez-tez yuxuma girir
Kəndimizin dağları.
Ətirli yamacları,
Nəğməkar bulaqları.

Görürəm bağçamızda
Əriklər çiçəkləyib.
Köpəyimiz qapıda
Qulağını şəkləyib.

Yenə ətirli yazdı
Balaca kəndimizdə.
Görən, görürmü bizi
Yuxuda kəndimiz də?

- Bizdən ayrı düşəndən
Yola dikilib gözü.
Kəndimiz yatıbmı ki,
Yuxuda görsün bizi?

Təkrar

# AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

*GİRİŞ-ÇIXIŞ ACSSES CONTROL SİSTEMLƏRİNƏ, SƏS AVADANLIQLARI VƏ KONFRANS SİSTEMLƏRİNƏ, MÜŞAHİDƏ, YANĞIN VƏ SİQNALXƏBƏRVERİCİ SİSTEMLƏRİNƏ XİDMƏTİN GÖSTƏRİLMƏSİ ÜÇÜN*

## AÇIQ TENDER ELAN EDİR

**1.** Tender iştirakçılarına təklif edilir ki, bu layihə üzrə öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə, yazılı surətdə Bakı şəhəri, Akademik Lev Landau küçəsi 16 ünvana təqdim etsinlər.
**2.** Tender təklifi zərfləri 16 fevral 2010-cu ildə yuxarıda qeyd olunan ünvanda açılacaqdır.
**3.** Tenderdə iştirak etmək üçün iddiaçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- Tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);
- İştirak haqqının ödənilməsi barədə bank sənədi;
- Tender təklifi zərfdən açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır;
- İddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Tender təklifi qiymətinin 3 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfdən açıldığı gündən ən azı 90 bank günü müddətində qüvvədə olmalıdır);
- İddiaçının maliyyə imkanları ilə əlaqədar sənədlər;
- İddiaçının ixtisas göstəricilərinə dair sənədlər.

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olunmaqla) tender proseduru başlanmasından 7 (yeddi) bank günü əvvəl təqdim olunmalıdır.

**4.** Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə tərtib olunmalıdır (başqa dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilində tərcümə edilmiş surətləri əlavə edilməlidir)
**5.** Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı 300 (üç yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

**ABB Yasamal filialı, VÖEN-9900001881**
**Kod: 805562, M/h: 0137010002944,**
**S.W.İ.F.T: İBAZAZ2X,**
**12 saylı Xəzinədarlıq İdarəsi VÖEN 1301937531**
**Hesab: 33205019449324665216**
**Vergilər Nazirliyi, Kitab 14194, VÖEN: 1300204521**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**6.** Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.
**7.** Tender təklifləri 15 fevral 2010-cu il, saat 18:00-a qədər Akademik Lev Landau 16 ünvanında Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.Tenderdə iddiaçıların səlahiyyətli nümayəndələri də iştirak edə bilərlər.

**8.** Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:

**Bakı şəhəri, Akademik Lev Landau küçəsi 16, Vergilər Nazirliyi**
**e-mail: sever.musayeva@taxes.gov.az**
**Tel: 403-87-36, Faks: 403-89-77**

**Əlaqələndirici şəxs: Sevər Musayeva**

# Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin məlumatı

2009-cu il dekabr ayının 28-də Culfa rayonunun Bənəniyar kəndində həyatına sui-qəsd etməyə cəhd göstərən bu kəndin sakini, 1974-cü il təvəllüdlü Əliyev Yunis Kamal oğlu Naxçıvan Muxtar Respublikasının Psixi Xəstəliklər Dispanserində qeydiyyatda olmuş və müalicə almışdır. Həmçinin bu ailənin digər üzvləri - Yunisin anası Əliyeva Şərəbanı Qardaşxan qızı, dayıları Quliyev Vasif Qardaşxan oğlu və Quliyev Yusif Qardaşxan oğlu da həmin dispanserdə qeydiyyatda olmuş, müalicə almış və həkim nəzarətində saxlanmışlar. Yunis Əliyevin dayısı Yusif Quliyev 2002-ci ildə qeyd olunan xəstəliklə dünyasını dəyişmişdir.

Yunis Əliyevin xəstə halından istifadə etmək istəyən Xalq cəbhəsinin qanunsuz silahlı dəstəsinin üzvü olmuş Rza Nuriyevin başçılıq etdiyi bir qrup şəxs onu orta ağır dərəcədə sərxoş vəziyyətə gətirərək kənd məktəbinin ərazisində və ətrafında fəaliyyətləri dayandırılan yöndəmsiz köşklərin yenidən açılması üçün qeyri-qanuni hərəkətlərə təşviq etmişlər. Belə ki, Yunis Əliyev dekabrın 28-də, aşura mərasiminin keçirildiyi gün kənd icra nümayəndəsinə "Ya bizə aid olan köşklərin fəaliyyətinə icazə verməlisiniz, ya da mən özümə qəsd edəcəyəm" demişdir. Yaxınlıqda olan kənd sakinləri onu sakitləşdirməyə çalışmış, lakin Yunis Əliyev sərxoş vəziyyətdə səs-küy salmaqda davam etmiş, gətirdiyi benzini üstünə tökərək özünü yandırmışdır. Kənd sakinlərinin və polis nəfərlərinin köməyi ilə hadisənin qarşısı alınmış, Yunis Əliyev üçüncü dərəcəli yanıq xəsarəti ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasına çatdırılmışdır. 2010-cu il yanvar ayının 5-də ailəsinin təkidi ilə o, İran İslam Respublikasının Təbriz şəhərindəki xəstəxanaya yerləşdirilmiş və hazırda müalicə alır.

Baş vermiş hadisə ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən cinayət işi başlanmış, Yunis Əliyevi cinayətə və özünə qəsdə təhrik etmiş şəxslər ifadə vermələri üçün nazirliyə dəvət edilmiş, lakin həmin şəxslər polis işçilərinə hücum edərək küt alətlərlə xəsarət yetirmişlər. Bu səbəbdən onların məcburi izahata cəlb edilməsi ilə bağlı qərar qəbul edilmişdir. Həmin şəxslər izahatlarında qanunsuz əməllərini etiraf etmiş və bağışlanmalarını xahiş etmişlər. İstintaq zamanı müəyyən edilmişdir ki, özünə qəsd edən Yunis Əliyevin və onu bu işə təhrik edənlərin hər birinin ailəsinə dövlət tərəfindən əməkhaqqı, təqaüd və sosial yardım formasında 400-600 manat vəsait verilir.

Qeyd olunan cinayət əməlindən - xəstə insanın həyatı bahasına məqsədlərinə nail olmaq cəhdlərindən nəticə çıxartmaq əvəzinə izahata cəlb olunanların Bakı şəhərindəki qohumları Culfa rayonunun Bənəniyar kəndində "qanunsuzluğun baş alıb getməsi" ilə bağlı müxtəlif instansiyalara şikayət edir, mətbuat orqanlarına müsahibələr verirlər.

Bildiririk ki, Culfa rayonunun Bənəniyar kəndində vəziyyət sabitdir və bir sıra mətbuat orqanlarında məqsədli şəkildə başlanan kampaniyanın - ictimaiyyətə yalan məlumat vermək cəhdinin heç bir real əsası yoxdur.




## Şahmat üzrə dünya çempionatı davam edir



Türkiyənin Bursa şəhərində keçirilən şahmat üzrə komandalararası dünya çempionatının 3-cü turunda Azərbaycan komandası Hindistan yığmasına uduzmuşdur.

Komandamıza ilk xalı dördüncü taxtada mübarizə aparan Şəhriyar Məmmədyarov qazandırmışdır. Şahmatçımız ağ fiqurlarla Narayanan Qopalı təslim edərək turnirdə ardıcıl üçüncü qələbəsinə imza atmışdır.

İkinci taxtada komandamızın şərəfini qoruyan Teymur Rəcəbov isə Pentala Xarikrişnan ilə sülh bağlamışdır.

Təəssüf ki, yığmanın birinci və üçüncü taxtada çıxış edən üzvləri məğlubiyyətlə üzləşmişlər. Vüqar Həşimov gözlənilmədən Krişnan Saşikirana, Qadir Hüseynov isə Suriya Qanquliyə uduzmuşdur.

## Milli futbolçumuz Rusiya klubunda forma geyinəcək



Bakının "İnter" klubunun və Azərbaycan yığmasının futbolçusu Mahir Şükürov karyerasını ölkə xaricində davam etdirəcək. 28 yaşlı futbolçu Rusiyanın "Anji" klubu ilə anlaşmışdır. O, yaxın günlərdə Mahaçqalaya yollanaraq rəsmi müqaviləyə imza atacaq.

Qeyd edək ki, "Anji" yeni mövsümdən etibarən Rusiya Premyer Liqasında çıxış edəcək.

## Voleybolçularımız Avropa kuboklarında ilk matçlarını keçirdilər




Bakının qadınlardan ibarət "Azərreyl" klubu Avropa Voleybol Konfederasiyası kubokunun (CEV) 1/8 final mərhələsi çərçivəsində Türkiyənin "Əczaçıbaşı-Zentiva" klubu ilə qarşılaşmışdır. Görüş komandamızın məğlubiyyəti ilə nəticələnmişdir (2:3). Cavab görüşü yanvarın 13-ü keçiriləcək.

Eyni turnirdə çıxış edən Azərbaycan çempionu "Rabitə" klubu səfər görüşündə Fransanın "Roşevil" komandasına 1:3 hesabı ilə məğlub olmuşdur.

Cavab görüşü yanvarın 14-də Bakıda olacaqdır.

Kişilərdən ibarət "Azərneft" voleybol klubu Çellenc kubokunun 1/16 final mərhələsində səfər görüşündə İsveçrənin "Volley" komandasına 1:3 hesabı ilə uduzmuşdur.

## Qış Olimpiya Oyunlarında ölkəmiz iki idmançı ilə təmsil olunacaq

2010-cu il Qış Olimpiya Oyunlarında Azərbaycanı iki idmançı təmsil edəcəkdir.

Milli Olimpiya Komitəsindən verilən məlumata görə, fevralın 12-də Kanadanın Vankuver şəhərində başlayacaq yarışda ölkəmizi əslən isveçrəli Yedriy Notz və italiyalı Qayya Bassani Antivari təmsil edəcəklər. Y.Notz kişilərin, G.B.Antivari isə qadınların yarışında iştirak edəcəklər. Hər iki idmançı dağ xizəkçiliyi növündə böyük slalom və slalom yarışlarında mübarizə aparacaqdır.

# Azercell abonentlərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 12.01.2010 - 16.01.2010-cu il tarixlərində gecə saatları ərzində danışıq kartlarının yüklənməsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## ALLAH RƏHMƏT ELƏSİN

Daxili işlər nazirinin müavini Oruc Zalov Ədliyyə Nazirliyinin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Faiq Qurbanova, əzizi

**RAMİZ TAĞIZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Apellyasiya Məhkəməsinin hakimi Hüseyn Talıbov tələbə yoldaşı, Bakı şəhəri, 12 saylı hüquq məsləhətxanasının müdiri Vaqif Kərimova, qardaşı

**ƏZİZ QULU OĞLU KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, Respublika Uşaq Təşkilatının sədri Gülər Əhmədova Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru Əliqismət Hümmət oğlu Lalayevə, anası

**ƏZİZƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, Respublika Uşaq Təşkilatının sədri Gülər Əhmədova Astara Rayon Məhkəməsinin sədri İsmayıl Abdurrəhmanlıya, anası

**NİSƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Apellyasiya Məhkəməsinin sədri və kollektivi Ağdam Hərbi Məhkəməsinin sədri Vidadi Nəsirova, həyat yoldaşı

**AFƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

S.Cəfərov, E.İsgəndərov, A.Qurbanov, Ç.Nəzərəliyev, M.Sərdarov, A.Alekseyev, S.Tahirov, M.Qafarov, Ə.Abdullayev, D.Mehdiyev, A.Muradov, E.Məhərrəmov, V.Mustafayev, R.Zeynalov, V.Xəlilov, Ə.Həsənli, F.Həbibov, Ç.Tağıyev, A.İbrahimov, A.Rzayeva, S.Daşdəmirova dostları, şair Teyyub Qurbana, qardaşı

**MAHMUD QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının və Eksperimental psixologiya ETL-in əməkdaşları sosial elmlər və psixologiya fakültəsinin dekan müavini, dosent Arif Rüstəmova, əzizi

**KAMALIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Universitetinin kollektivi "Xalq qəzeti" redaksiyasının şöbə müdiri Əlipənah Bayramova, qardaşı

**AĞAKƏRİM GÜLBALA OĞLU BAYRAMOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfiri Məmməd Əliyevə, qardaşı

**VƏLİ ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rahim Hüseynov ailə üzvləri ilə birlikdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru Əliqismət Lalayevə, anası

**ƏZİZƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Azad Həmkarlar İttifaqı Komitəsi Tələbə Azad Həmkarlar İttifaqı Komitəsinin sədri Samirə Quliyevaya, əzizi

**XƏQANİ KƏRİM OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru M.Bunyatov və teatrın kollektivi Musiqili Komediya Teatrının direktoru Əliqismət Lalayevə, anası

**ƏZİZƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Damət Bağırov, Nazim Eminov, Əsəd Mirzəyev, Rövşən Quliyev və Nizami Qəhrəmanov Azərbaycan Dövlət İqtisad Universitetinin Riyaziyyat kafedrasının professoru Nazim Musayevə, anası

**DİLBƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
azernews@azeronline.com
az_reklam@azeronline.com
azerbaijan_newspaper@azeronline.com
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı - | 439-68-71, | Xalqla əlaqə şöbəsi - | 439-84-41, |
| Baş redaktor müavinləri - | 438-86-86, 434-63-30, 438-31-11, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi - | 510-08-36, |
| Məsul katib - | 439-43-23, | Humanitar siyasət şöbəsi - | 438-56-60, |
| Məsul katib müavinləri - | 439-44-91, | Mədəniyyət şöbəsi - | 432-37-68, |
| Dövlət quruculuğu şöbəsi - | 438-97-96, 439-21-00, | Reklam şöbəsi - | 439-49-20, |
| Parlament və siyasət şöbəsi - | tel.faks - 439-72-39, 439-63-82, | Kompüter mərkəzi - | 438-20-87, |
| İqtisadiyyat şöbəsi - | 438-42-32, | Fotoinformasiya şöbəsi - | 438-84-73, |
| | tel./faks - (994 12) 438-35-55, | Mühasibat - | 439-59-33, |
| | | Faks - | (994 12) 4394 323, 4398441 |

*Qeydiyyat nömrəsi 1*
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8398
Sifariş 6